Azərbaycan Respublikası
Mədəniyyət Naziriliyi



Cəfər Cabbarlı adına
Respublika Gənclər Kitabxanası

# MİR CƏLAL HƏQİQƏTLƏRİ




## TÖVSİYƏ-ƏDƏBİYYAT SİYAHISI

BAKI-2018

XX əsir milli ədəbi-bədii fikir tarixinin görkəmli nümayəndəsi, yazıçı Mir Cəlal Paşayevin Azərbaycan ədəbiyyatının inkişafı və onun məzmunca zənginləşməsində mühüm rol oynamışdır. Xalq yaradıcılığı ilə klassik bədii irsin qabaqcıl ənənələrinin vəhdətini yeni formada yaşadan və ədəbiyyata həyat gətirmiş yazıçı kimi tanınan Mir Cəlal Paşayev eyni zamanda görkəmli tədqiqatçı alim olmuşdur.

**İLHAM ƏLİYEV,**
***Azərbaycan Respublikasının Prezidenti***

---

Onun əsərləri bütöv bir dövrün mənzərəsini yaradır. O, böyük pedaqoq kimi Azərbaycan cəmiyyəti üçün minlərlə açıq fikirli tələbə yetişdir -mişdir.

**Mehriban Əliyeva,**
***Heydər Əliyev Fondunun Preziden***

**“Mənim təsəvvürümdə gecə-gündüz tanımadan qələm işlədən Mir Cəlal ölməzdir. Yetkinliklə, dolğunluqla qələm işlədən, özündən sonraya cild-cild ölməz əsərlər qoyan ədib də bir yolluq ölərmi, unudularmı? Yox! Ölməz, unudulmaz, onun bu dünya üzündə ədəbiləşən yeri vardır, onun ədəbiləşən surəti öz əsərlərində yaradılmışdır. Məncə, gözəl insan, gözəl ailə başçısı Mir Cəlal öz əsərlərində, elmi tədqiqatlarında yaşayacaqdır. Məncə, Mir Cəlalın pak surəti gecələr ayla işıqlanacaq, gündüzlər günəşlə şöləlnəcəkdir”.**

**Süleyman Rəhimov**
**Azərbaycanın xalq yazıçısı**

# Mir Cəlal Paşayevin həyat və yaradıcılığı

Mir Cəlal (Cəlal Əli oğlu Paşayev) 1908-ci il aprelin 26-da Cənubi Azərbaycanın Əndəbil kəndində anadan olmuşdur. Lakin sonralar Gəncə şəhərinə gəlmiş, ibtidai təhsilini burada almış, uşaqlıq və ilk gənclik illərini burada keçirmişdir. 1924-1928-ci illərdə Gəncə Darülmüəllimində oxumuş, qurtaranda Gədəbəy yeddiillik məktəbinə müəllim göndərilmişdir. 1929-1930-cu illərdə 1 saylı Gəncə şəhər məktəbində direktor vəzifəsində çalışmışdır. 1930-1931-ci illərdə Kazan Pedaqoji İnstitutunun dil-ədəbiyyat fakültəsində oxumuş, 1932-ci ildə Bakıya qayıdaraq Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutunun aspiranturasında təhsilini davam etdirmiş, "Kommunist" və "Gənc işçi" qəzetlərində işləmişdir. 1933-cü ildə SSRİ EA Zaqafqaziya filialı Azərbaycan şöbəsinin ictimai elmlər bölməsinə elmi işçi götürülmüş, 1936-1941-ci illərdə Pedaqoji İnstitutda və Dövlət Universitetində müəllimlik etmişdir. 1940-cı ildə "Füzulinin poetik xüsusiyyətləri" tədqiqatına görə filologiya elmləri namizədi, 1947-ci ildə isə "Azərbaycanda ədəbi məktəblər (1905-1917)" əsərinə görə fİlologiya elmləri doktoru adına layiq görülmüşdür. Yazıçılıq, alimlik, müəllimlik sənətini yanaşı-əlaqəli davam etdirərək uzun müddət respublika Elmlər Akademiyası Nizami adına Ədəbiyyat və Dil İnstitutunda şöbə müdiri, 1961-cı ildən ömrünün sonuna kimi Azərbaycan Dövlət Universitetində kafedra müdiri və müəllim işləmişdir. O, Füzuli irsinin sovet dövründə ilk gözəl tədqiqatçılarından biri, XX əsr Azərbaycan ədəbiyyatının görkəmli mütəxəssisi, müasir ədəbi proseslə ciddi maraqlanan nüfuzlu alim, respublikanın əməkdar elm xadimi, milli kadrların hazırlanması, gənc nəslin yetişməsi və təlim-tərbiyəsi sahəsində böyük əməyi olan istedadlı pedaqoq idi.

Xalqına qeyrət və vicdanla xidmətlər göstərmiş Mir Cəlal Paşayev 1978-ci il sentyabrın 28-də vəfat etmişdir. Əbədiyyətə qovuşmuş görkəmli yazıçının çoxşaxəli yaradıcılığı nəinki müasirlərinə, eyni zamanda özündən sonra gələn nəsillərə də əsl örnəkdir. Bu nəcib şəxsiyyət təkcə Azərbaycanda deyil, respublikamızın hüdudlarından

kənarda da xalqımızı layiqincə təmsil edib. Təhsilimizin, elmimizin, ədəbiyyatımızın və mədəniyyətimizin etibarlı hamisi, alovlu təbliğatçısı kimi çətin missiya daşıyıb. Buna görə də, Prezidentin "UNESCO-nun 2008-2009-cu illərdə görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin qeyd edilməsi proqramına Azərbaycanla bağlı daxil olmuş yubileylərin keçirilməsi haqqında” Sərəncamına əsasən, yazıçı M.C.Paşayevin yubiley mərasimi təntənə ilə qeyd edilib. Parisdə, UNESCO-nun iqamətgahında XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, alim, pedaqoq M.C.Paşayevin 100 illiyinə həsr olunmuş mərasim keçirilib. Bu yubileyin UNESCO səviyyəsində qeyd edilməsi, ilk növbədə, Azərbaycan elminə, mədəniyyətinə və ədəbiyyatına dünya miqyasında verilən dəyərin təzahürüdür. M.C. Paşayev yüksək poetik təfəkkür və bədii təxəyyülü ilə xalqımızın özünəməxsus keyfiyyətlərini, zəngin mənəvi aləmini çoxsaylı əsərlərində parlaq şəkildə təcəssüm etdirib. O, dəyərli hekayələri, məzmunlu roman və povestləri ilə oxucu auditoriyasına geniş yol tapıb. İctimai həyatın tipik lövhələrini ədəbiyyata gətirən sənətkarın elmi yaradıcılığı kimi bədii yaradıcılığı da fəlsəfi estetik görüşlərdən, günün aktual problemlərindən bəhs edir. Yaradıcılığının mövzu rəngarəngliyi, üslub xüsusiyyətləri, bütünlükdə orijinallığı özünə məxsus yer tutur. Mir Cəlal ədəbiyyatşünas-alim, pedaqoq kimi də geniş aspektdə fəaliyyətini davam etdirib. Görkəmli yazıçı yaradıcılığının bir sahəsini digəri ilə mükəmməl şəkildə uzlaşdırıb. Onun ədəbi görüşləri, məntiqi fikirləri bədii yaradıcılığına ziyan gətirməyib, əksinə, sənətkarlıq xüsusiyyətlərinin daha da formalaşmasında yardımçı rol oynayıb. Bu böyük şəxsiyyətin adı, xeyirxah əməlləri bundan sonra da qədirbilən Azərbaycan xalqının yaddaşında əbədi yaşayacaq.

Bu il görkəmli yazıçı, ədəbiyyatşünas, filologiya elmləri doktoru Mir Cəlal Paşayevin 110 illik yubileyi tamam olur. Bu münasibətlə Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının informasiya-resurs şöbəsi “Mir Cəlal həqiqətləri ” adlı tövsiyə-ədəbiyyat siyahısı hazırlayıb.



## MİR CƏLAL PAŞAYEVİN HƏYAT VƏ YARADICILIĞININ ƏSAS TARİXLƏRİ

**1908** Mir Cəlal Əli oğlu Paşayev aprel ayının 26-da Cənubi Azərbaycanın Əndəbil kəndində anadan olmuşdur

**1924** Gəncə Darülmüəlliminə daxil olmuşdur 1926-1927 Gəncə Darülmüəlliminə Tələbə Həmkarlar Təşkilatının sədri işləmişdir.

**1926-1927** Gəncə Darülmüəllimində Tələbə Həmkarlar Təşkilatının sədri işləmişdir.

**1928** Darülmüəllimi bitirib,Gədəbəy yeddiillik məktəbində direktor vəzifəsində çalışmışdır.

**1929-1930** 1 №-li Gəncə şəhər məktəbində direktor vəzifəsində işləmişdir

**1930** Qazan Pedaqoji İnstitutunun Dil-ədəbiyyat fakültəsinə daxil olmuşdur.

**1932** Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun aspiranturasına daxil olmuşdur. «Kommunist», «Gənc işçi» qəzetlərində işləmiş, «Sağlam yollarda» adlı ilk kitabı çapdan çıxmışdır.

**1933** SSRI EA Zaqafqaziya filialının Azərbaycan şöbəsinin Ictimai elmlər bölməsində kiçik elmi işçi vəzifəsində çalışmışdır

**1934** Aspiranturanı bitirmişdir.Nizami adına Ədəbiyyat Institutunun yaradılmasında yaxından iştirak etmiş və «XX əsr 8 Azərbaycan ədəbiyyatı» şöbəsinin müdiri vəzifəsində çalışmışdır. Ümumittifaq Sovet Yazıçıları briqadasının tərkibində Ağ dəniz Baltik kanalında yaradıcılıq ezamiyyətində olmuşdur

**1936-1941** APİ-də və ADU-da müəllimlik etmişdir.

**1940** «Füzulinin poetik xüsusiyyətləri» adlı əsərini müdafiə edərək, filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. Moskvada keçirilmiş Azərbaycan Ədəbiyyatı dekadasının iştirakçısı olmuşdur 1944 Sovet İttifaqı Kommunist Partiyasının sıralarına daxil olmuşdur. SSRİ Elmlər Akademiyasının 220 illiyi ilə əlaqədar olaraq «Əmək igidliyinə görə» və «Qafqazın müdafiəsinə görə» medalları ilə təltif edilmişdir

**1944-1960** SSRİ EA Azərbaycan filialının Ədəbiyyat və Dil İnstitutunun Sovet Ədəbiyyatı şöbəsinin müdiri və ADUnun Azərbaycan Ədəbiyyatı kafedrasında dosent vəzifəsində işləmişdir

**1946** «1941-1945-ci illərdə Böyük Vətən müharibəsində fədakar əməyinə görə» medalı ilə təltif edilmişdir

| | |
|---|---|
| **1947** | «Azərbaycanda ədəbi məktəblər» əsərinə görə filologiya elmləri doktoru alimlik dərəcəsi almışdır |
| **1948** | Azərbaycan Dövlət Universitetində professor vəzifəsinə seçilmişdir |
| **1950** | Moskvada keçirilmiş Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyünün iştirakçısı olmuşdur |
| **1954** | SSRI Yazıçılarının II qurultayında nümayəndə kimi iştirak etmişdir. «Şərəf nişanı» ordeni ilə təltif edilmişdir |
| **1958** | Anadan olmasının 50 illiyi ilə əlaqədar olaraq «Şərəf nişanı» ordeni və «Qabaqcıl maarif xadimi» nişanı ilə təltif edilmişdir |
| **1959** | SSRI Yazıçılarının III qurultayında nümayəndə kimi iştirak etmişdir. Moskvada keçirilən Azərbaycan Ədəbiyyatı və Incəsənəti ongünlüyünün iştirakçısı olmuşdur |
| **1960** | «Əmək igidliyinə görə» medalı ilə təltif edilmişdir.Bir qrup sovet alimi ilə birlikdə Fransa səfərində olmuşdur |
| **1967** | «Qırmızı Əmək Bayrağı» ordeni ilə təltif olunmuşdur.SSRİ Yazıçılarının IV qurultayında iştirak etmişdir |
| **1968** | «Bir gəncin manifesti» əsəri Respublika mükafatına layiq görülmüşdür |
| **1969** | Azərbaycanın «Əməkdar elm xadimi» adına layiq görülmüşdür. |
| **1978** | «Oktyabr İnqilabı» ordeni ilə təltif edilmişdir |
| **1978** | Mir Cəlal Paşayev 28 sentyabr 1978 - ci ildə vəfat etmiş, Bakıda Fəxri Xiyabanda dəfn olunmuşdur. Xatirəsini əbədiləşdirmək üçün ölkəmizin bir sıra yerlərində küçə, məktəb, kitabxana, mədəniyyət evi hal-hazırda onun adını daşıyır. |
| **2008** | YUNESKO-nun görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin qeyd edilməsi proqramı çərçivəsində YUNESKO Baş Konfransının 34-cü sessiyası 2008-2009-cu illərdə yazıçı Mir Cəlal Paşayevin 100 illik yubileyinin rəsmi qeyd olunması ilə bağlı qərar qəbul etmişdir. |
| 2008 | Azərbaycan Prezidentinin 2008-ci il 31 yanvar tarixli Sərəncamına əsasən, yazıçı Mir Cəlal Paşayevin yubiley mərasimi təntənə ilə qeyd edilib. |
| 2008 | Parisdə, YUNESKO-nun iqamətgahında XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, alim, pedaqoq Mir Cəlal Paşayevin 100 illiyinə həsr olunmuş mərasim keçirilib. |

# Görkəmli adamlar
# Mir Cəlal Paşayev haqqında:

- “ 1961-ci ildə Azərnəşrdə onun “İnsanlıq fəlsəfəsi” adlı kitabı çap olunmuşdu. Onu vərəqlərkən 1937-ci ildə Qiyabi İnstitutun Şəki sessiyasında dediyi sözlər yadıma düşdü:” Məktəblərdə mütləq “İnsanlıq” bir predmet kimi təlim olunmalıdır.”
- İnsanlıq və insanlıq fəlsəfəsi onun əsərlərində həmişə qırmızı bir xətlə keçirdi ”

**Qılman İlkin**
**Azərbaycanın xalq yazıçısı, əməkdar incəsənət xadimi**

- “ Mir Cəlal müəllimi bir yazıçı kimi, bir ədib kimi xarakterizə etmək üçün bu başdan deyim, onun həyatı çox qəribə olub. O, bir insan yox, üç insanın həyatını yaşayıb. Mən deyərdim ki, Mir Cəlal müəllimin romanist və novellist kimi ədəbi-bədii yaradıcılığı eyni səviyyədə keçib. Bu, bir tərəfi. İkinci tərəfdən - böyük ədəbiyyatşünas alim olub. Onun əsərlərində bizim böyük klassiklərimizə dair tənqidləri, təhlilləri var. Üçüncüsü də böyük bir pedaqoq, müdrik bir müəllim olub. Bu üç həyatı bu insan yaşayıb. Onun fəaliyyətində bu üç həyat bir-birini elə tamamlayırdı ki, bir-birinə elə bağlı idi ki, vahid bir Mir Cəlal obrazı yaranırdı.”

**Arif Paşayev**
**Mir Cəlal Paşayevin oğlu, akademik.**

- “Mir Cəlal mahir bir hekayə ustasıdır. Onun hekayələri yığcam və ibrətlidir. Mir Cəlalın hekayələrindəki sənətkaranə sadəlik, fövqəladə təbiilik, heyranedici səmimilik təqdirəlayiqdir”

**Məmməd Arif**

- “Qısa və mənalı yazmaqda Füzulini, Mirzə Cəlili, Sabiri həmişə, hamıya örnək hesab elər, nümunə gföstərərdi. Füzuli poeziyası və poetikasının incəliklərini ümumiləşdirən tədqiqat əsəri ilə ədib özünü böyük qəlb şairinin incə bilicisi kimi tanıtmışdı.”

- Mİr Cəlal müəllim mənəvi cəhətdən saf,təmiz bir insan idi.Tamah hissindən uzaq,az-çoxa qane olan,gözü-könlü tox,təmiz bir ziyalı idi.

**Firidun Hüseynov,**
***Professor***

- “Mir Cəlal intellektual aləmi zəngin və müxtəlif sahəli yazıçılarımızdandır.”

**Abbas Zamanov**

- “Mir Cəlalda, heç şübhəsiz, əyləncəli hekayə yazmaq qabiliyyəti vardır. Hər hansı şəkildə təzahür edən bu qabiliyyət həmişə böyük bir ənənənin inkişafı ilə bağlıdır. Bu onun sənətinin güclü cəhətidir.”

**İ. Sats**

- “Mir Cəlal sənətkardır, yaradıcıdır. Onun romanının hər bir sözü öz avtobioqrafiyasının bir hissəsi kimi görünür, canlı və səmimi həyacanı dərhal oxucuya təsir edir...”

**Jak Rıkaçev**

- “Aldığımız cəbhə məktubunda bir döyüşçü yazır ki, Mir Cəlalın “Vətən yaraları” hekayəsini oxuduqdan sonra mən düşmənə qarşı daha kinli və amansız oldum”

**Səməd Vurğun**

- “Mir Cəlal intizar səhnələri yaratmağı sevir. Hekayələrində də nəzərə çarpan bu cəhət roman və povestlərində özünü daha çox hiss etdirir.

**Cəfər Xəndan**

- “Onun satirik qələmində bəzən C Məmmədquluzadənin, bəzən də, Ə. Haqverdiyevin cizgilərinə rast gəlirik. Lakin Mir Cəlalın yumor və satirası özünəməxsusdur.”

**Məmməd Arif**

- “Bir gəncin manifesti” Mir Cəlal yaradıcılığının bütün gözəl keyfiyyətlərinin vəhdətidir. Bu, nəinki Mir Cəlalın, mən deyərdim nəsrin ən gözəl nümunələrindən sayıla bilər.
- Mİr Cəlal yaradıcılığının ən üstün cəhətlərindən biri də onun təmiz, şaqraq və büllur dili idi. Onun dili,xalq danışıq tərzinə uyğun,son dərəcə canlı,təbii ifadələrlə zəngin və bədii dildir.

**Bəxtiyar Vahabzadə,**
***Xalq şairi***

- Cəmiyyətin sağlamlığını ailənin möhkəmliyində görən Mir Cəlal, bunu gözəl ifadə xətrinə deyil, həqiqətən belə düşündüyünə görə deyirdi. Bəlkə də özü uşaqlıq çağlarından ailə məhəbbətindən uzaq düşdüyünə görə, ailə dəyərlərinə, ailə ünsiyyətinə xüsusi münasibət bəsləyirdi. ”Azərbaycanda ədəbi məktəblər ” adlı məşhur elmi əsərin müəllifi həqiqətən xüsusi bir həyat məktəbi, ailə məktəbi yaratmışdı”.

***Hafiz Paşayev***
***Mir Cəlal Paşayevin oğlu, fizika – riyaziyyat elmləri doktoru.***

- Mir Cəlal müəllim XX əsr Azərbaycan nəsrinin yükünü çiyinlərində daşıyan görkəmli yazıçılarımızdan biridir.

***

- Mir Cəlal təbiət etibarilə necə sadə idisə, danışığı da eimi və bədii təhkiyyəsi də eləcə idi və əsas məsələ burasındadır ki, onun həm şəxsiyyətində, həm də yaradıcılığındakı o sadəlik qətiyyən primitvlik yox, müdrikliyin nəticəsi idi.

**Elçin,**
***Xalq yazıçısı,professor***

- Mİr Cəlalın yaradıcılığının şahidi olmaq,əksər əsərlərinin ilk oxucusu olmaq taleyin mənə bəxş etdiyi xoşbəxtlik idi.

**Hafiz Paşayev,**
***professor***

- Mir Cəlal müəllim həqiqətən peyğəmbər təbiətli insan idi.Xeyirxahlıq onun canında,qanindaydı.Mir Cəlal müəllim insanpərvər idi.İstedadlı adamların qədrini bilirdi.

**Nəriman Həsənzadə,**
***Xalq şairi***

- Mir Cəlal müəllim bir insan kimi çox sakit,işıqlı,müdrik simaya malik idi.Onun üzündə,gözlərinin dərinliyində daim işıqlı,munis,nurlu bir təbəssüm olardı.

**Şamil Salmanov,**
***prifessor***

- Mir Cəlal sənətkardır,yaradıcıdır.Onun romanının hər bir sözü öz tərcümeyi-halının bir hissəsi kimi görünür,canlı və səmimi həyacanı dərhal oxucuya təsir edir.

**İsa Hüseynov,**
***Xalq yazıçısı***

- Mir Cəlalın insanlara,iş yoldaşlarına,ümumən onunla az və ya çox dərəcədə əlaqədar olan adamlara aydın,açıq münasibəti var idi.Adamlara şəxsi keyfiyyətinə,savadına,intizamına tapşırılan işi yerinə yetirmək qabiliyyətinə görə münasibət bəsləyirdi.

**Yusif Seyidov,**
***professor***

- Şerdən,sənətdən danışanda,həmişə ədəbiyyatın bəzi problemlərinə də toxunar,nəzəri məsələləri çox sadə bir tərzdə izah edərdi.Çox vaxt bizə bu fikri aşılamağı çalışardı ki, ədəbiyyata təsadüfi gəlib çıxanlar gec-tez səhfini anlayıb uzaqlaşacaq və sevdiyi sahəni özü axtarıb tapacaqdır.

**Əmirxan Xəlilov,**
***Professor***

- Mir Cəlalın “Füzuli sənətkarlığı” monoqrafiyası Füzuli ədəbi irsini öyrənmək, mənimsəmək və dərk etmək üçün elmi açardır.

**Qara Namazov,**
***professor***

- Mir Cəlal görkəmli ALİM idi. Alim sözünü böyük hərflərlə nəzərə çarpdırmağımın və ondan əvvəl görkəmli təyinini işlətməyimin səbəbi var. Mir Cəlal yazıçı olmasaydı belə, biz ondan elmdə müəyyən iz buraxan görkəmli bir alim kimi söz açardıq.

**Vaqif Yusifli,**
***Filologiya elmləri doktoru***

- Professor Mir Cəlal Paşayev geniş yaradıcılıq fəaliyyətinə malik olan bir şəxsiyyət idi: O, görkəmli yazıçı, tanınmış nəzəriyyəçi filoloq alim, nümunəvi müəllim kimi xatirələrdə əbədi yaşayır. Mir Cəlal müəllim nəzəri filoloq olmaqla yanaşı, çox gözəl müəllim kimi tanınırdı. O, təkcə bilik vermir, eyni zamanda hərəkətləri, adamlara münasibəti ilə tərbiyə edirdi

***.

- Professor Mir Cəlal müəllimin mülayimliyi, humanizmi onun ciddiyyətinə, obyektivliyinə qətiyyən mane olmurdu. O, bu mülayimliyi ilə yanaşı, olduqca prinsipial və obyektiv bir şəxsiyyət idi.

**ŞƏMİSTAN MİKAYILOV,**
***Professor***

**Vətəninə, xalqına bağlı olan yazıçının ədəbi irsi bütün dövrlər üçün aktualdır.**

## Mir Cəlal Paşayevin əsərləri:

1. Seçilmiş əsərləri : 5 cilddə / Mir Cəlal; tərt. N. A. Paşayeva, T. M. Mütəllimov; red. Ş. Axundov.
   **I cild** : Hekayələr. - Bakı : Adiloğlu, 2013. - 438 s.
2. Seçilmiş əsərləri: 5 cilddə / Mir Cəlal; tərt. N. A. Paşayeva, T. M. Mütəllimov; red. Ş. Axundov.
   **II cild** : Hekayələr. - Bakı : Adiloğlu, 2013. - 440 s.
3. Seçilmiş əsərləri : 5 cilddə / Mir Cəlal; tərt. N. A. Paşayeva, T. M. Mütəllimov; red. Ş. Axundov.
   **III cild** : Hekayələr. - Bakı: Adiloğlu, 2013. - 452 s.
4. Seçilmiş əsərləri : 5 cilddə /Mir Cəlal; tərt. N. A. Paşayeva, T. M. Mütəllimov; red. Ş. Axundov.
   **IV cild** : Hekayələr. - Bakı : Adiloğlu, 2013. - 462 s.
5. Seçilmiş əsərləri: 5 cilddə / Mir Cəlal; tərt. N. A. Paşayeva, T. M. Mütəllimov; red. Ş. Axundov.
   **V cild** : Feltetonlar, şeirlər, oçerklər, tərcümələr, xatirələr. – Bak: Adiloğlu, 2013. - 314 s.

6. Seçilmiş əsərləri / Mir Cəlal; tərt. Y. İsmayılov.- Bakı: Şərq - Qərb, 2005. -384 s. - (Müasir Azərbaycan ədəbiyyatı)

7. Azərbaycanda ədəbi məktəblər: 1905-1917 /Mir Cəlal; elmi red. T. M. Mütəllimov. - Bakı : Ziya-Nurlan, 2004. - 391 s.

8. Dirilən adam: Roman və hekayələr.- Bakı: Yazıçı, 1978.

9. 9. Yuxu və külək / Mir Cəlal; red. G. Həsənzadə; rəs. H. A. Ağayev; Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. - Bakı : Nağıl Evi-N, 2016. - 12 s.

## Kiril əlifbası ilə olan kitablar:

## Əsərləri:

**10.** Бир кәнчин манифести : роман / Мир Чәлал.- Бакы: Јазычы, 1984.- 223 с.

11. Бир кәнчин манифести. Јашыдлар: романлар /Мир Чәлал.- Бакы: Азәрнәшр, 1964.- 451 с.

**12.** Бир кәнчин манифести: роман / Мир Чәлал.- Бакы: Ушаг вә Кәнчләр Әдәбиjjаты Нәшриjjаты, 1949.- 232 с.

**13.** Дағлар дилә кәлди: һекаjәләр вә повест / Мир Чәлал.- Бакы: Кәнчлик, 1978. - 175 с.

14. Фүзули сәнәткарлығы:монографија /Мир Чәлал. II нәшри.- Бакы: Маариф, 1994. - 252 с.

**15.** Фүзули сәнәткарлығы / Мир Чәлал; ред. Һ. М. Араслы; С.М. Киров адына Азәрбаjчан Дөвләт Университети.- Бакы: АДУ нәшриjjаты, 1958.- 276 с.

16. Күлбәсләјән гыз: һекаjәләр / Мир Чәлал.- Бакы: Азәрнәшр, 1965.- 334 с.

17. Инсанлыг фәлсәфәси : һекаjәләр / Мир Чәлал.- Бакы, 1961.- 402 с.

18. XX әср Азәрбаjчан әдәбиjjаты: дәрслик / Мир Чәлал, Ф. Ч. Һүсеjнов; елми ред. Б. Ә. Нәбијев. - III нәшри. - Бакы: Маариф, 1982.- 426 с.

19. XX әср Азәрбаjчан әдәбиjjаты: али мәктәбләр үчүн дәрслик / Мир Чәлал, Ф. Ч. Һүсеjнов; елми ред. Б.Ә. Нәбијев. II нәшри.- Бакы: Маариф, 1969.- 348 с.

**20.** Ләјагәт : һекаjәләр вә повест / Мир Чәлал. - Бакы: Јазычы, 1984. - 359 с.

21. Силаh гардашлары: һекаjәләр / Мир Чәлал. - Бакы: Кәнчлик, 1974. - 292 с.

22. Шәфәгдән галханлар: повест вә һекаjәләр / Мир Чәлал. - Бакы : Кәнчлик, 1972. - 270 с.

23. Јолумуз һаjанадыр: роман / Мир Чәлал. - Бакы: Азәрбаjчан Ушаг вә Кәнчләр Әдәбиjjаты Нәшриjjаты, 1964. - 246 с.

## Elektron resurslar (CD-ROM)

**24.** **Mir Cəlal yaradıcılığında** vətən sevgisi: konfransın materialları / Regionların İnkişafı İctimai Birliyi; tərt. İ. Əhmədov; red. T. Həmid.- Bakı: Çaşıoğlu, 2009. - 1 el. opt. disk (CD-ROM). - ("Nizami" layihəsi)

25. Seçilmiş əsərləri / Mir Cəlal; red. heyəti: Ə. Q. Quliyev [et al.]; tərt. Ə. Paşayeva;ön sözün müəl., red. N. Ə. Həsənzadə. - Bakı : Çaşıoğlu, 2005. – 1 el. opt. disk (CD-ROM). - ("Nizami" layihəsi). - (Azərbaycan ədəbiyyatı)

26. Seçilmiş əsərləri / Mir Cəlal; tərc. A. Tomson, tərt. red. N. A. Paşayeva, T. M. Mütəllimov; Regionların İnkişafı İctimai Birliyi
**I cild** : Dirilən adam: roman / . Hekayələr. - Bakı : Çaşıoğlu, 2008. – 1 el. opt. disk (CD-ROM). - ("Nizami" layihəsi)

27. Seçilmiş əsərləri / Mir Cəlal; tərc. A. Tomson, tərt. red. N. A. Paşayeva, T. M. Mütəllimov; Regionların İnkişafı İctimai Birliyi
**II cild**: Bir gəncin manifesti: roman / Hekayələr. - Bakı: Çaşıoğlu, 2008. – 1 el. opt. disk (CD-ROM). - ("Nizami" layihəsi)

28. Seçilmiş əsərləri / Mir Cəlal; tərc. A. Tomson, tərt. red. N. A. Paşayeva, T. M. Mütəllimov; Regionların İnkişafı İctimai Birliyi
**III cild** : Yolumuz hayanadir: roman / Hekayələr. - Bakı: Çaşıoğlu, 2008. – 1 el. opt. disk (CD-ROM). - ("Nizami" layihəsi)

## Rus dilində kitablar

**29.** Избранные произведения / Общественная Организация Развития Регионов; сост. и ред. А. Пашаева, А. Гаджиев; пер. А. Томсон
**Кн. 1**. - Баку: Чашыоглу, 2009. - 440 с.

**30.** Избранные произведения / Общественная Организация Развития Регионов; сост. и ред. А. Пашаева, А. Гаджиев; пер. А. Томсон**.**
**Кн. 2**. - Баку: Чашыоглу, 2009. - 466 с.

**31.** Избранные произведения: роман / Общественная Организация Развития Регионов ; сост. и ред. А. Пашаева, А. Гаджиев; пер. А. Томсон**.**
**Кн. 3**. - Баку : Чашыоглу, 2009. - 466 с.

## Mir Cəlal Paşayev haqqında

### Kitablar:

32. **Əliyeva, Nurlana MÜzəffər qızı.** Sovet dövrü Azərbaycan ədəbiyyatı: 1941-1991: dərslik / N. M. Əliyeva; elmi red. N. Cəfərov; Azərbaycan Respublikası Təhsil Nazirliyi. - Bakı : Elm və Təhsil, 2013. - 664 s.

33. **Gülgün, Rəhilə.** Göylər adamı : yazıçı, alim, pedaqoq Mir Cəlal haqqında esse-araşdırma : yeni yozum / R. Gülgün; red., ön sözün müəl. N. Q. Cəfərov;

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi.- Bakı: Kür-Araz Nəşriyyat Evi, 2008. - 246 s. - (Silinməz izlər)

34. **Hüseynova, Həcər Emin qızı.** Mir Cəlalın obrazlı dili / H. E. Hüseynova; red. A. M. Qurbanov. - Bakı : Elm, 2007. - 164 s.

35. **Mir Cəlal** / Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə. C.6.- Bakı, 1982.- 586 s.

36. **Mir Cəlal** : həyatı, mühiti, ədəbi, elmi və pedaqoji fəaliyyəti: iki cilddə / tərt. müəl. T. Ə. Əhmədov, red. Ə. M. Paşayeva. **I cild**. - Bakı : Nurlar NPM, 2014. - 348 s.

37. **Mir Cəlal** : fotosənədlər, əlyazmalar, epistolyar irs: iki cilddə / tərt. müəl. T. Ə. Əhmədov, red. Ə. M. Paşayeva. **II cild**. - Bakı : Nurlar NPM, 2014. - 380 s.

38. **Mir Cəlal**: 1908-1978 // Azərbaycan yazıçıları: ensiklopedik məlumat kitabı.- Bakı, 1995.- S. 333-334.

39. **Orucov, Hidayət Xuduş oğlu**. Mir Cəlal dünyasından sətirlər : esse = Вехи мира Мир Джалала : эссе / H. X. Orucov. - Bakı : Əbilov, Zeynalov və oğulları, 2006. - 84 s.

40. **Пашаjев, Мир Ҹәлал Әли оғлу.** XX әср Азәрбајҹан әдәбиjјаты / М.Ҹ.Пашаjев, Ф. Ҹ. Һүсеjнов; елми ред. Б. Ә. Нәбиjев. - Бакы : Маариф, 1974. - 348 с.

41. **Rəhimli, İlham Əziz oğlu.** Məram: məbədə doğru gedən yol: Mir Cəlal yaradıcılığının səhnə həyatı / İ. Ə. Rəhimli; elmi red. N. A. Paşayeva; Regionların İnkişafı İctimai Birliyi. - Bakı : Çaşıoğlu, 2009. - 383 s.

## Mir Cəlal Paşayev haqqında dövri mətbuatda:
## 2018

42. Mir Cəlalın xatirəsinə həsr olunan hekayə müsabiqəsinin qalibləri mükafatlandırılıb // Xalq qəzeti. - 2018.- 24 may. - № 116. - S. 5 .

43. Bir yazıçı ömrünün manifesti : böyük pedaqoq, alim, istedadlı yazıçı Mir Cəlal Paşayevin anadan olmasından 110 il ötür // Hərbi And. - 2018.- 4 may. - № 17. - S. 10 .

44. Mir Cəlal Paşayevin "M. Ə. Sabirin sənət dünyası" kitabı elm ictimaiyyəti üçün mühüm hadisədir // Xalq qəzeti. - 2017.- 29 aprel. - № 90. - S. 12 .

45. Abasov, Abdulla. Böyük şəxsiyyətlər az-az yaranır : Mir Cəlal Paşayev - 110 / A. Abasov // Azərbaycan. - 2018.- 27 aprel. - № 94. - S. 10 .

46. Prezident kitabxanasında "Mir Cəlal" adlı elektron nəşr hazırlanmışdır /AZƏRTAC // Respublika.- 2018.- 27 aprel.- №93.- S.5.

47. Vəliyev, Rauf. Mir Cəlal Paşayev haqqında xatirələr /R. Vəliyev // Üç nöqtə. - 2018.- 27 aprel. - № 74. - S.8 .

48. Alışanlı, Şirindil. XX əsr ədəbiyyatının Mir Cəlal fenomeni : Mir Cəlal Paşayev - 110 / Ş. Alışanlı // Azərbaycan. - 2018.- 26 aprel. - № 93. - S.7.

49. Hidayət. Ümmandan damlalar [Mətn]: Mir Cəlal -110 / Hidayət // Xalq qəzeti.- 26 aprel.- №93.- S.8.

50. Mürsəlova, Ofelya. 110 ilin mübarək, dünya şöhrətli ədib Mir Cəlal Paşayev! / O. Mürsəlova // Səs. - 2018.- 26 aprel. - № 80. - S.6.

51. Milli ədəbiyyatın patriarxı : Mir Cəlal Paşayev - 110 // Respublika. - 2018.- 26 aprel. - № 92. - S.6.

52. Nəzakət. Azərbaycan nəsrinin görkəmli nüməndəsi [Mətn]: bu gün böyük pedaqoq, alim, istedadlıyazıçı Mir Cəlal Paşayevin anadan olmasından 110il ötür / Nəzakət // Səs.- 2018.- 26 aprel.- №80.- S.6.

53. Seyidov, Yusif. Milli ədəbiyyatın patriarxı: Mir Cəlal Paşayev-110 / Y. Seyidov // Respublika.- 2018.- 26 aprel.- №92.- S.6.

54. Salmanoğlu, Təyyar. Mir Cəlal nəsri milli mücadilə kontekstində [Mətn] / T. Salmanoğlu // Xalq qəzeti.- 2018.- 24 aprel.- №91.- S. 7.

55. Heydərova, Ulduz. Mir Cəlal Paşayev - 110 il : Kiçik hekayələrin böyük ustadı / U. Heydərova // Təhsil problemləri. - 2018.- 16-23 aprel. - № 29/30. - S. 4 .

56. Zeynalov, əsgər. Görkəmli mifoloq alim [Mətn]:[ Mirəli Seyidov-100] / Ə. Zeynalov // Respublika.- 2018.- 22 aprel.- №89.- S.6.

57. Mir Cəlal Paşayev Azərbaycan ədəbiyyatında dəstxəti ilə seçilən yazıçı, əsl elm fədaisi olub: [Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Mir Cəlal Paşayevin 110 illik yubileyinə həsr olunan elmi konfrans keçirilib] // Xalq qəzeti. - 2018.- 12 may. - № 106. - S. 7 .

58. Müşfiq, Şahanə. Mir Cəlal Paşayevin Türkiyədə çıxan kitabının Bakıda təqdimatı olub: Türk ədəbiyyat vəqfinin nəşr etdiyi kitabin təqdimatina Türkiyədən gəlmiş nümayəndə heyəti də qatılıb / Ş. Müşfiq // 525-ci qəzet.- 2018.10 fevral.- № 27. - S. 16 .

59. Mir Cəlal Paşayevin "Füzulinin poetik xüsusiyyətləri" elmi əsəri Türkiyədə nəşr olunub // Xalq qəzeti. - 2018.- 8 fevral. - № 29. - S. 8

**2017**

60. Azərbaycan nəsrinin görkəmli nümayəndəsi: böyük pedaqoq, alim istedadlı yazıçı Mir Cəlal Paşayevin anadan olmasından 109 il ötür // Səs. - 2017.- 26 aprel. – № 72. - S. 4.

61. Hüseynova, Aytən. Mir Cəlalın arxivindən tapılan hekayələr haqqında / A. Hüseynova // Mədəniyyət.AZ. - 2017. - № 9/10. – S. 64-67.

62. Məhərrəmova, Təranə. Həqiqət, düzlük, səmimiyyət aşiqi: Mir Cəlal Paşayev Azərbaycan ədəbi-bədii fikir və elm tarixində özünəməxsus yer tutur / T. Məhərrəmova // Kaspi. - 2017.- 28 sentyabr. - № 159. – S. 6.

63. Məmmədli, Ruhiyyə. Düşündürən və kamilləşdirən poeziya / R. Məmmədli // Mədəniyyət.AZ. - 2017. - № 3/4. - S. 16-18.

64. Əhmədli, Bədirxan. Yazıçı və alim fədakarlığı / B. Əhmədli // Azərbaycan. - 2017.- 28 sentyabr. - № 211. - S. 7. - Ədəbiyyat xadimləri.

65. Əsgərli, Əlizadə. Mir Cəlalın elmi yaradıcılığında Sabir mövzusu / Ə. Əsgərli // Xalq qəzeti. - 2017.- 25 iyun. - № 136. - S. 12.

66. Qafarova, S. H. Mir Cəlal Paşayevin uşaq ədəbiyyatının formalaşmasında rolu / S. H. Qafarova // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri: Ali məktəblər arası elmi məqalələr məcmuəsi. - 2017. - № 4. - S. 178-180 .

67. Əsgərov, Eldar. Mir Cəlalın yaradıcılığında Vətən sevgisi / E. Əsgərov // Respublika. - 2017.- 28 aprel. - № 89. - S. 6. – Mir Cəlalın əziz xatirəsinə.

## 2016

68. Əliyev, Sabir. Mir Cəlal Paşayev çağdaş Azərbaycan ədəbiyyatının görkəmli simalarındandır /S.Əliyev //Azərbaycan.- 2016.- 27 aprel.- S. 12.

69. Mürsəlova, Ofeliya. Müdrik insan - Mir Cəlal Paşayev] /O.Mürsəlov // Səs. - 2016.- 26 aprel.- S.5.

70. Həsənzadə, N. "Mir Cəlal Paşayev oğluna aldığı evi mənə verdi" /N. Həsənzadə; müsahibəni apardı S. Kərimova //Azərbaycan müəllimi.-2016.- 30 yanvar.- S.7.

71. Məmməd, Zakir. "Bostan oğrusu"ndan bir neçə söz: Mir Cəlal Paşayev haqqında /Z. Məmmə // Ədalət.- 2016.- 23 yanvar.- S.10.

## 2015

72. Azalp, Akif. Əsrlərin romanı-nəsillərin manifesti : "Bir gəncin manifesti"nə yeni baxış / A. Azalp // Respublika. - 2015.- 8 oktyabr. - № 218. - S. 6-7.

73. Hüseynova, Aytən Qəzənfər qızı. Bədii sadəlik və mənəvi alilik / A. Q. Hüseynova // Kaspi. - 2015.- 1 may. - № 77. - S. 7.

74. Hüseynova, Həcər. Yazıçı Mir Cəlal, şair Mir Cəlal / H. Hüseynova // İki sahil. - 2015.- 7 aprel. - № 59. - S. 13.

75. Laçın, Sultan. Mir Cəlal və Lev Tolstoy / S. Laçın // Həftə içi. - 2015.- 4 noyabr. - № 201. - S. 4-5.

76. Mirzəzadə, Reyhan. Mir Cəlal və rus ədəbiyyatı / R. Mirzəzadə // Həftə içi. - 2015.- 20 noyabr. - № 213. - S. 4-5.

77. Mirzəzadə, Reyhan. İstedadlı yazıçı, böyük alim, sevimli ata / R. Mirzəzadə

// Həftə içi. - 2015.- 17 sentyabr. - № 169. - S. 4-5.

78. Quliyeva, Azadə. Mir Cəlal yaradıcılığında dil və üslub xüsusiyyətləri / A. Quliyeva // Həftə içi. - 2015.- 18 noyabr. – № 211. - S. 7.

79. Yusifli, Vaqif. Sadəliyin və böyüklüyün mücəssəməsi / V. Yusifli // Azərbaycan. - 2015.-26 aprel. - № 88. - S. 6.

## 2014

80. Alışanlı, Şirindil. Ədəbi-nəzəri fikrimizin görkəmli söz sahibi / Ş. Alışanlı // Azərbaycan. - 2014.-26 aprel. - № 85. - S. 6.

81. Ağayeva, Gözəl. Bir ziyalı ömrünün manifesti... / G. Ağayeva // Xalq qəzeti. - 2014.- 26 aprel. - № 85. - S. 5.

82. Görkəmli yazıçı, ədəbiyyatşünas alim, əməkdar elm xadimi Mir Cəlal Paşayevin "Seçilmiş əsərləri"nin təqdimatı olmuşdur / AzərTAc // Azərbaycan. - 2014.-1 may. - № 89. - S. 6.

83. Mir Cəlal Paşayevin əziz xatirəsinə həsr edilmiş ikicildlik kitabın təqdimatı olub // Azərbaycan. - 2014.- 27 sentyabr. - № 211. - S. 3.

84. Mir Cəlalın yaradıcılığına və ömür yoluna işıq salan dəyərli kitab // Azərbay - can. - 2014. - 9 dekabr. - № 269. - S. 6.

85. Vələdoğlu, Elçin. Mir Cəlal "Seçilmiş əsərləri" / E. Vələdoğlu // Respublika. - 2014.-31 may. - № 113. - S. 6.

86. Yusifli, Vaqif. Mir Cəlal həqiqətləri / V. Yusifli // Azərbaycan. - 2014.- 28 sentyabr. - № 212. - S. 5.

87. Zeynalov, Samir. "Mir Cəlal" kitabının təqdimat mərasimi keçirilmişdir / S. Zeynalov // Respublika. - 2014.- 27 sentyabr. – № 211. - S. 2.

88. Əhmədalılar, Tahir. Bir Ustadın manifesti / T. Əhmədalılar // Mədəniyyət. - 2014.- 25 aprel. - № 31. - S. 11.

89. Əlişanoğlu, Tehran. Mir Cəlal romanlarının xronotopu / T. Əlişanoğlu // 525-ci qəzet. - 2014.-11 oktyabr. - № 184. - S. 18-19,30.

90. Əlişanoğlu, Tehran. Mir Cəlalın gülüşü / T. Əlişanoğlu // 525-ci qəzet. - 2014.- 4 oktyabr. - № 181. - S. 18-19.

## İnternetdə:

http://heydar-aliyev-foundation.org/

https://az.wikipedia.org/wiki/Mir_C%C9%99lal

https://www.kitabyurdu.org/kitab/edebiyyat/1271-mir-celal-secilmis-eserleri.html

http://www.ebooks.az/book_MwlNOJf1.html

http://www.azkurs.org/mir-celal-secilmis-eserleri.html

https://news.milli.az/society/46018.html

https://az.trend.az/azerbaijan/politics/2195575.html

http://www.clb.az/html/m-c-100.c1.html

www.preslib.az/mircelal.htm

http://www.azerbaijan-news.az/index.php?mod=3&id=95526

http://www.respublica-news.az

http://az.strategiya.az/index.php?do=xeber&id=40628

https://525.az/site/?name=xeber&news_id=82823#gsc.tab=0

https://oxu.az/society/23197

http://muallim.edu.az/content/?category=arxiv&issue=04&content_id=25

http://anl.az/el/m/mc_se.pdf

http://kulis.lent.az/news/9333

http://az.strategiya.az/index.php?do=xeber&id=44480

https://az.trend.az/azerbaijan/politics/2195575.html

http://kaspi.az/az/heqiqet-duzluk-semimiyyet-asiqi/

https://news.milli.az/society/46018.html

**Tərtib etdi:** **İnformasiya-resurs şöbəsinin böyük kitabxanaçısı**

**Məmmədova Tamella**

## Ünvan:

**Az 1065, Yasamal rayonu, Bakı şəhəri**
**N.Nərimanov küç., 203**

## Əlaqə telefonları:

**(+994 012) 538 02 47**
**538 54 57**
**538 93 54**

e-mail